18 avqust 2015-cü il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Beyləqan rayon icra hakimiyyətinin binasında Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Tsuquo Takahişinin, Beyləqan Rayon İcra Hakimiyyətinin Başçısı cənab Vaqif Abdullayevin və BMT-nin Uşaqlara Yardım Fondu Təşkilatının (UNISEF) Azərbaycan üzrə təmsilçisinin müavini xanım Nafisa Binte Shafigue-nin iştirakı ilə aşağıdakı layihə üzrə İmzalanma mərasimi keçirilmişdir.

## **"Beyləqan şəhərində məktəbin gigiyenik şəraitinin yaxşılaşdırılması"**layihəsi

Beyləqan şəhərinin iki məktəbində gigiyenik şəraiti təkmilləşdirmək məqsədi ilə layihə çərçivəsində yeni sanitar qovşağının tikintisi planlaşdırılır. Tikinti başa çatdıqdan sonra UNİSEF qeyri-hökümət təşkilatları ilə birgə tələbə və müəllim heyyəti üçün qiqiyena mövzusunda təlim keçirtməyi planlaşdırır. Layihənin ümumi məbləği **90,300 ABŞ** dolları təşkil edir.

**İmzalanma mərasimi**



**Sol tərəfdən**: Səfir T.Takahaşi, UNISEF Azərbaycan üzrə təmsilçisinin müavini xanım N.B.Shafigue, Beyləqan Rayon İcra Hakimiyyətinin Başçısı V.Abdullayev və qeyri-hökümət təşkilatının nümayəndəsi



**Məktəbin sanitar qovşağı**
**Yeni sanitar qovşağı ilin sonuna qədər quraşdırılacaq**



